Ədəbiyyat qəzeti

10 oktyabr 2020-ci il 31



Şahnaz ŞAHİN

# Vətən çağırır

*Hər gün qulağımı bir səs oxşayır,*
*Könlümə yüz boya çəkən çağırır.*
*Ruhunu Vətənin ruhuna qatan,*
*Canını bayrağa bükən çağırır.*

*Sevinir hər çiçək, hər yarpaq, hər kol,*
*Bu qaya səsləyir, o dağ çağırır.*
*Murovdan o üzə süzür xəyalım,*
*Bütün varlığıyla torpaq çağırır.*

*Qisas deyib durub gör neçə ildi,*
*Məzarı dağılan ruhlar çağırır.*
*Aparır qan izi üzü Şuşaya,*
*Didilmiş bədənlər, başlar çağırır.*

*Ağrı-ağrı kəsir ağrılarım da,*
*Gözlərdə çırtlayan yaşlar çağırır.*
*O daş yaddaşına qurban olduğum,*
*Dərələr əl edir, daşlar çağırır.*

*Səngərdən səngərə qonur quş kimi*
*Müzəffər ordunun qalib əsgəri.*
*Başının üstündə üçrəngli bayraq,*
*Yıxır sərhədləri, aşır sədləri.*

*İnsantək dil açır hər çığır, hər iz,*
*"Cəngi" haraylayır, "Segah" çağırır.*
*Get, sənə, igidim, uğurlar olsun,*
*Səni o müqəddəs sabah çağırır!..*